# III BEYNƏLXALQ DUZDAG ARAŞDIRMALARI KONQRESİ





**21-22 | noyabr | 2024**
**NAXÇIVAN**



- *Ödənişsiz iştirak*
- *Üz-üzə və online təqdimatlar*
- *Xülasə və tam məqalə nəşri*
- *İştirak sertifikatı*

saltcon24.ndu.edu.az
saltcon24@ndu.edu.az

+994 60 426 49 19
+994 50 337 55 69

# DƏVƏT MƏKTUBU

**“III BEYNƏLXALQ DUZDAG ARAŞDIRMALARI KONQRESİ”**

05-06 noyabr 2024, NAXÇIVAN

***saltcon24.edu.az***

**Dəyərli elm adamı!**

21.22 noyabr 2024-cü il tarixlərində Macarıstanın Rzeszów, Türkiyənin Igdır, Çankırı Karatekin Universitetləri və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası ilə birgə üz-üzə və onlayn keçirəcəyimiz “**III Beynəlxalq Duzdag Araşdırmaları Konqresi”**ndə iştirakınızdan məmnun olarıq. Düşüncələrin bir olması, elmi yeniliklərin müzakirəsi və yeni layihələrə zəmin yaratması məqsədi ilə Siz dəyərli elm adamlarını şərqin qapısı Naxçıvana dəvət edirik. Etik prinsiplər və orijinal tədqiqatların yer alacağı konqresimizdə təqdim olunan məqalə və tezislər dəqiqliklə incələnəcək və sonda konqres kitabında nəşr olunacaqdır.
Konqresimizdə dəyərli tədqiqatlarınızla qatılmağınızı arzu edirik.

Hörmətlə,

**“III Beynəlxalq Duzdag Araşdırmaları Konqresi”nın** təşkilat komitəsi

Əlaqə: ***saltcon24.ndu.edu.az*** ***saltcon24@ndu.edu.az***
Tel: (036) 5440861 (1015) Elmi hissə
(+994) 50 337 55 69 (Bəhruz Məmmədov), (+994) 703658165 (Əli Həşimov)

**Kongresin keçiriləcəyi yer: Naxçıvan Dövlət Universiteti Konqres Mərkəzi**

**MÜHÜM MƏLUMATLAR:**

- ✓ Ödənişsiz iştirak
- ✓ Üz-üzə və online təqdimatlar
- ✓ Xülasə və tam məqalə nəşri
- ✓ İştirak sertifikatı

**MÖVZULAR:**

- Sosial, iqtisadi və mədəni həyatımızda Duzdağının rolu;
- Duzdağ fizioterapiya mərkəzinin müalicəvi əhəmiyyəti
- Dağ duzunun kimyası
- Duzdağın faunası və florası
- Duzdağın geologiyası, yaranma şəraiti və ondan istifadənin tarixi

**MÜHÜM TARİXLƏR:**

Qeydiyyat və mövzu adlarının göndərilməsi üçün son tarix: **09.11.2024**

Konqres proqramının yayım tarixi: **13.11.2024**

Tezis və ya tam mətin göndərmək üçün son tarix: **18.11.2024**

Konqresin keçirilmə tarixi: **21-22.11.2024**

Konqres kitabının yayım tarixi: **20.12.2024**

Konqresin dili: **Azərbaycan, türk, ingilis və rus dilləri**

# KONQRESİN MƏQSƏDİ

Dünya Səhiyyə Təşkilatının məlumatına görə, yer kürəsində yaşayan əhalinin təqribən 10%-ə qədəri allergik xəstəliklərdən əziyyət çəkir ki, bunun da 1,5-2%-i bronxial astmanın payına düşür. Məlumata görə, hazırda dünyada 15 milyon nəfərə yaxın insan bronxial astmalı xəstədir. Bu kimi bir çox xəstəliklərin, müalicəsində duz şaxtası şəraitində aparılan müalicə, yəni spleoterapiya həmişə öz müsbət təsirini göstərmişdir.

Duzdağ - Naxçıvanın rəmzlərindən biri olub, təbii ehtiyatları 90 milyon ton təşkil edir. Naxçıvan özünün nadir duz mağarası ilə məşhurdur. Astma xəstəliyinin müalicəsi üçün illərdən bəri primitiv üsullarla istifadə edilən mağara hazırda günün tələblərinə tam cavab verən müasir sağlamlıq mərkəzinə çevrilmişdir. Dağın altına doğru 300 metr uzanan və divarları duz qayaları ilə örtülü "Duzdağ" Fizioterapiya Mərkəzinin dünyada bənzəri yoxdur. Buraya gələnlər təxminən bir həftə gecələri duz mağarasında keçirdikdən sonra yenidən sağlamlıqlarına qovuşurlar

Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır. XIX əsrin 70-ci illərində Duzdağda aşkar olunan əmək alətləri, daş baltalar və çəkiclər, çapacaqlar, sonrakı dövrdə tapılan ocaq qalıqları, Eneolit, Erkən Tunc və Dəmir dövrünə aid keramika məmulatları, qədim yaşayış yerləri və Duzdağla bağlı folklor nümunələri Duzdağ mədəniyyətinin sistemli şəkildə və yenidən araşdırılması üçün ciddi əsaslar yaradır.

Duz dağı və düz mədəni tarixi araşdırmalara, iqtisadi inkişafa, səhiyyəyə öz töhfəsini verməklə yanaşı davamlı elmi araşdırmalar tələb edən mühüm bir sahədir. Qaya duzunun kimyasının, bioloji təsir xüsusiyyətlərinin, ərazinin tarixinin, coğrafiyasının, flora və faunasının öyrənilməsi baxımından mühüm əhəmiyyətini nəzərə alaraq Duzdağ araşdırmalarının davam etdirilməsi mühüm əhəmiyyət daşımaqdadır.

Konqresin əsas məqsədi Qardaş ölkənin universitetlərinin əməkdaşları ilə Duzdağ mövzusuna dair aparılmış araşdırmaları paylaşmaq, birgə elmi tədqiqatlar apaılması üçün zəmin yaratmaqdan ibarətdir.

# KONQRESİN İSTİQAMƏTLƏRİ

## DUZDAĞIN GEOLOGİYASI, YARANMA ŞƏRAİTİ VƏ ONDAN İSTİFADƏNİN TARİXİ

- Duzdağın geologiyası
- Duzdağın yaranma şəraiti

## DUZDAĞIN SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HƏYATIMIZDA ROLU

- Sosial həyatımızda Duz dağının rolu
- İqtisadi həyatımızda Duz dağının rolu
- Mədəni həyatımızda Duz dağının rolu
- Duzdağ fizioterapiya mərkəzinin turizm əhəmiyyəti
- Duzdağ duz ehtiyatının iqtisadi cəhətdən qiymətləndirilməsi

## DUZDAĞIN TİBBİ ƏHƏMİYYƏTİ

- Astma xəstəliyinin müalicəsində Duzdağ fizioterapiya mərkəzinin rolu
- Tənəffüs yolları xəstəliyinin müalicəsində Duzdağ fizioterapiya mərkəzinin rolu
- Allergik xəstəliklərin müalicəsində Duzdağ fizioterapiya mərkəzinin rolu

## DUZDAĞIN KİMYASI

- Naxçıvan duzunun tətbiq sahələri
- Naxçıvan duz yataqları və onların işlənməsi
- Duzdağ duzunun  tərkibindəki mineral maddələr
- Duzdağ Fizioterapiya Mərkəzində ionitlərin adsorbsiya xassələrinin öyrənilməsi

## DUZDAĞIN FAUNASI VƏ FLORASI

- Duzdağ ərazisi florasının müasir vəziyyəti
- Duzdağ ərazisi faunasının müasir vəziyyəti
- Duzdağdan istifadənin tarixi

## KONQRES MATERİALLARININ TƏRTİBİ QAYDASI

**Kağızın ölçüsü:** A4
**Boş sahə:** hər tərəfdən 2 sm
**Şrift:** Times New Roman, 12 pt
**Sətirarası interval:** 1,15 sm.
**Abzas:** 1,25 sm
**Məqalənin adı:** ortadan, böyük hərflərlə, qalın şriftlə
**Müəllifin soyadı, adı, atasının adı:** ortadan, qalın şriftlə
**İş yeri, şəhər, ölkə:** ortadan, qalın şriftlə
**E-poçt ünvanı:** ortadan, qalın şriftlə
**Açar sözlər** (3-5 söz): Azərbaycan, ingilis və rus dillərində
**Xülasə** (200-300 söz): məqalənin yazıldığı dildən başqa iki dildə
**Həcmi:** 5-8 səhifə (məqalənin bütün tərtibatı daxil olmaqla)
**Ədəbiyyata istinadlar:** APA tərzinə uyğun olaraq – cümlənin sonunda dəyirmi mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi, səhifə.
Nümunə üçün: (Səmədova, 2024, s. 393)
**Ədəbiyyat siyahısı:** Mətndə qeyd olunan hər bir mənbə ədəbiyyat siyahısında əks olunur. Siyahı müəllifin adı ilə əlifba sırası ilə tərtib edilir.